Xalq qəzeti 2020.- 19 iyun.- S.8.

# Sağlamlığımızı qorumaq istəyiriksə...



**Daha iki həssas və çətin günü geridə qoyduq. Daha iki gün – sərtləşdirilmiş karantin rejimi arxada qaldı. Əvvəlcə 4, bu dəfə isə 9 bölgəmizdə tətbiq edilmiş sərtləşdirilmiş karantin günləri tarixə çevrildi... Düzdür, bu iki gündə gecəsini-gündüzünə qatışmış, aylardır həm bizim təhlükəsizliyimiz, can güvənliyimiz, həm də sağlamlığımız üçün həyatlarını böyük risk və təhlükə altında qoymuş, böyük fədakarlıqlar göstərmiş polislərimizlə, daxili işlər orqanlarımızın əməkdaşları ilə vətəndaşlar arasında gərginlik, hamımızın üzüntüsünə səbəb olan – 7-8 iyunda baş verənlər yaşanmadı. İnsanlarımız əksəriyyət etibarı ilə səbr, təmkin nümayiş etdirdi, karantin qaydalarına əməl etməklə, vətəndaşlıq borclarını yerinə yetirdi, əlavə problemlər yaratmadı.**

Amma bununla belə, bəzi vətəndaşlarımız yenə də qoyulan qaydalara, karantin tələblərinə laqeydlik, biganəlik göstərdilər. Xüsusilə, ötən həftənin beşinci günündən rayonlara, istirahət bölgələrinə başlanan "köç" dalğası, yollardakı sıxlıq, tıxac çox ciddi narahatlıqlar yaratdı və yaratmaqdadır. Çünki bu axın, bu dalğa həmin insanlarla yanaşı, üz tutduqları rayonların, bölgələrinin insanları, vətəndaşları üçün də böyük risk və təhlükə idi. Axı onlar həm özlərinin, həm yaxınlarının, həm də o bölgələrdəki insanların həyatını böyük risk altında qoymuş oldular. Bunu həmin bölgələrin insanlarından aldığımız məlumatlar da təsdiqləyir. Heç nəyə fikir vermədən, karantin tələblərinə əməl etmədən belə bir addıma yol vermək həqiqətən qəbuledilməzdir.

Qayda-qanun hamı üçündür və eynidir. Kimsə özünü əlahiddə apara, üstün hesab edə bilməz. Özünüz də son 3-4 gündə açıqlanan və böyük həyəcan doğuran statistikanı görürsünüz.Yenə də virusa yoluxanların sayında artım, yenə də çoxalan ölüm halları. Tanınmışların, məşhurların koronavirusa yoluxması, bu bəladan əziyyət çəkməsi artıq hamımızı ciddi şəkildə düşündürməlidir. Dəyərli ziyalımız, hamımızın sevimlisi, Əməkdar artist Bəhram Bağırzadə artıq neçə gündür ki, ağır vəziyyətdədir, koronavirus bəlasından əziyyət çəkir. Onun sağlamlıq durumu birbaşa ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsi nəzarətindədir.

Bunun özü məsuliyyətsizlik, laqeydlik, biganəlik göstərən bəzi vətəndaşlarımıza nəsə demirmi? Onlar bəlanın ciddiyyətini anlamırlarmı? Niyə özlərinin də, başqalarının da həyatını bilə-bilə riskə atırlar? Tibbi maskalardan və digər qoruyucu vasitələrdən istifadə etmək, sosial məsafəni gözləmək, karantin şərtlərinə və tələblərinə əməl etmək bu qədərmi çətindir? Özünüz də şahidsiniz ki, bu ilin yanvar-fevral aylarından dünyanı caynağına keçirmiş koronavirus pandemiyası, koronvirus bəlası öz pəncələrini hələ də insanlığın, bəşəriyyətin üzərindən çəkmək istəmir. Nəinki istəmir, əksinə, gündən-günə daha bərk, möhkəm yapışır, insanlığı, dünyanı qorxu altında saxlamaqda, inləməkdə davam edir.

Ara-sıra azalmalar, enmələr olsa da, bunlar ötəri xarakter daşıyır, insanların həyatı, ölkələrin iqtisadiyyatı yenə göz görə-görə çökməkdə davam edir… Və dünya hələ də bu bəlanın qarşısında əlacsız vəziyyətdə qalmaqdadır. Ancaq respublikamızın , xüsusilə də, dövlət başçımızın vaxtında atdığı unikal, qabaqlayıcı tədbirlər nəticəsində bu bəlanın digər ölkələrdə olduğu kimi, bizdə də daha böyük itkilər və fəsadlar yaşatmasının qarşısı alınır. İlkin mərhələdə istər yoluxma, istərsə ölüm halları kritik həddə çatmadı. Həm də dalbadal verilən qərarlar, fərmanlar, sərəncamlar, keçirilən açılışlar nəticəsində insanlarımızın, iqtisadiyyatımızın bu bəladan nisbətən daha az itkisiz, daha az fəsadsız ötüşməsi mümkünləşdi. Bəlkə də bir çox ölkələrin illik büdcələri həcmində 3, 5 milyardlıq sosial paket icraya yönəldildi.

İnsanların əhval-ruhiyyəsinin aşağı düşməsinin, ümidsizləşməsinin qarşısı alınır. Bunlar adi məsələ deyil və kimsəyə də asan görünməsin. Tarixi, böyük, möhtəşəm addımlardır. Eyni zamanda, demək olar ki, hər gün bu bəlanın, bu təhlükənin aradan qaldırılması istiqamətində növbəti, yeni addımlar atılır. İndi bu addımların üzərindən nəyə görə bir andaca xətt çəkilməlidir? Nəyə görə bəzilərimizin məsuliyyətsizliyi üzündən görülən bu qədər işlər, çəkilən zəhmətlər, hədər getməldir?

Kimsənin ixtiyarı yoxdur ki, bu işləri, bu addımları, bu zəhmətləri yerə vursun, həm insanlarımızı, həm də daim vətəndaşının yanında olan dövlətimizi çətin və çıxılmaz durumda qoysun. Bu baxımdan bir daha belə hesab edirəm ki, nə qədər çətin olsa da – xüsusilə, havaların istiləşməsi, əsəblərin tarıma çəkilməsi fonunda, – əgər bu bəladan birdəfəlik xilas olmaq, qurtulmaq istəyiriksə, operativ qərargahın, TƏBİB-in verdiyi qərarlara, tövsiyələrə, karantin şərtlərinə hamılıqla və sözsüz əməl etməliyik.

Ən azı möhtərəm Prezidentimizdən, Birinci xanımdan nümunə, örnək götürməliyik və götürülməlidir. "Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir – ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin"-- deyən dövlət başçımıza, eləcə də dövlətimizə bu çətin və həssas günlərdə bir daha vətəndaş məsuliyyətimizlə həmrəyliyimizi, dəstəyimizi nümayiş etdirməliyik.Yalnız o zaman bu bəlaya da qalib gələ və birlikdə güclü ola bilərik!

*Jalə ƏLİYEVA,*
*Milli Məclisin deputatı,*
*Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini,*
*professor*